# Hesablama Palatasının 2023-ci il üçün büdcəsinin icrası ilə bağlı Hesabata açıqlama

2023-cü il üçün Azərbaycan Respublikası Hesablama Palatasının xərclər smetası Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il 9 dekabr tarixli 689-VIQR nömrəli Qərarı ilə 10626,0 min manat təsdiq edilmişdir.

Dövlət büdcəsinə yenidən baxılma zamanı Hesablama Palatası üçün nəzərdə tutulmuş xərclərin ümumi məbləği daxilində iqtisadi təsnifatın bəzi xərc istiqamətləri üzrə dəyişikliklər təklif olunmuş və bu, yenidən baxılmaqla təsdiq edilmiş büdcə göstəricilərində nəzərə alınmışdır. Qeyd edək ki, 5 aylıq icra göstəriciləri də nəzərə alınmaqla, əvvəlcədən proqnozlaşdırılması mümkün olmayan xərclərin maliyyə təminatının yaradılması üçün 6 xərc istiqaməti ümumilikdə 48,3 min manat azaldılmış, 4 xərc istiqaməti isə həmin məbləğ qədər artırılmışdır (Cədvəl 1).

**Cədvəl 1. Dövlət büdcəsinə yenidən baxılma zamanı Hesablama Palatasının büdcəsində edilmiş dəyişikliklər, manatla**

| Xərc istiqamətləri | İlkin təsdiq edilmiş | azalma | artım | Yenidən baxılmaqla təsdiq edilmiş |
|---|---|---|---|---|
| Ştatdankənar işçilərin əməkhaqqı | **38340** | | *3300,0* | **41640** |
| Dəftərxana və təsərrüfat xərcləri | **37700** | *-3500* | | **34200** |
| Mətbəə məhsulları üzrə xərclər | **25000** | *-8000* | | **17000** |
| Yanacaq və sürtkü materiallarının alınması | **101112** | *-20000* | | **81112** |
| Digər malların alınması | **15000** | *-6000* | | **9000** |
| Dövlət qulluqçularının əlavə təhsil xərcləri | **13135** | *-8500* | | **4635** |
| Sair xərclər | **40765** | *-2300* | | **38465** |
| Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərin qəbulu, onlara xidmət göstərilməsi | **15000** | | *10000* | **25000** |
| Dövlət qulluqçularına ödənişlər | **92580** | | *15000* | **107580** |
| Maşın və avadanlıqlar | **62240** | | *20000* | **82240** |
| Cəmi | | *-48300* | *48300* | |

Xərclər smetası ilə yanaşı, Hesablama Palatasına 2023-cü il ərzində dövlət büdcəsinin bölüşdürülməmiş xərc istiqamətlərindən də əlavə vəsait ayrılmışdır. Belə ki, 2 beynəlxalq tədbir üçün 92,0 min manat, avtomobil nəqliyyatı vasitəsinin alınması üçün 95,0 min manat, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası xərc istiqaməti üzrə 12,6 min manat ayrılmışdır.

Yenidən baxılma zamanı həyata keçirilmiş dəyişikliklə yanaşı, Hesablama Palatasının büdcəsində icra prosesində də dəyişikliklər aparılmışdır. Belə ki, “Büdcə sistemi haqqında” Qanunun 19.6-cı maddəsinin tələbləri əsas gətirilərək ilkin təsdiq edilmiş məbləğ 2150,1 min manat azaldılmışdır.

***Beləliklə***, bütün istiqamətlər nəzərə alınmaqla Hesablama Palatası üçün 2023-cü ildə *10825,6 min manat* nəzərdə tutulmuş, icra prosesində dəyişikliklər aparılmaqla azaldılmış büdcə *8675,5 min manat* təşkil etmiş, kassa icrası həmin məbləğə bərabər olmuşdur (Cədvəl 2). Başqa sözlə, Hesablama Palatasının büdcəsi il üçün ilkin nəzərdə tutulmuş məbləğə qarşı 80,1%, icra prosesində həyata keçirilmiş dəyişikliklərlə azaldılmış məbləğə qarşı isə 100,0% icra olunmuşdur.

**Cədvəl 2. Hesablama Palatasının 2023-cü il büdcəsinin icrası barədə məlumat, manatla**

| Xərc maddələrinin adı | Kodu | Hesabat ili üçün təsdiq edilmiş büdcə * | Dürüstləşmiş büdcə** | İcra (illik) |
|---|---|---|---|---|
| **ƏMƏYİN ÖDƏNİŞİ** | **210000** | **9568976,0** | **7661908,0** | **7661908,0** |
| ***Əməkhaqqı*** | ***211000*** | ***7669449,0*** | ***6149009,0*** | ***6149009,0*** |
| *Ştatda olan işçilərin əməkhaqqı* | *211100* | *6969804,0* | *5467395,0* | *5467395,0* |
| *Ştatdankənar işçilərin əməkhaqqı* | *211200* | *41640,0* | *40983,0* | *40983,0* |
| *Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri* | *211900* | *658005,0* | *640631,0* | *640631,0* |
| ***Əmək haqqına görə ayırmalar*** | ***212000*** | ***1899527,0*** | ***1512899,0*** | ***1512899,0*** |
| *Məcburi dövlət sosial sığorta haqları* | *212100* | *1686553,0* | *1352782,0* | *1352782,0* |
| *İcbari dövlət sığortası* | *212200* | *24281,0* | *10305,0* | *10305,0* |
| *İcbari tibbi sığorta* | *212300* | *153323,0* | *122151,0* | *122151,0* |
| *İşsizlikdən sığorta* | *212400* | *35370,0* | *27661,0* | *27661,0* |
| **MALLARIN (İŞLƏRİN VƏ XİDMƏTLƏRİN) SATINALINMASI** | **220000** | **812730,0** | **663642,0** | **663642,0** |
| ***Malların satınalınması*** | ***221000*** | ***144290,0*** | ***119853,0*** | ***119853,0*** |
| *Dəftərxana və təsərrüfat xərcləri* | *221100* | *34200,0* | *33644,0* | *33644,0* |
| *Mətbəə məhsulları üzrə xərclər* | *221200* | *17000,0* | *14128,0* | *14128,0* |
| *Yanacaq və sürtkü materiallarının alınması* | *221300* | *81112,0* | *65050,0* | *65050,0* |
| *Dərman, sarğı ləvazimatlarının və materiallarının alınması* | *221400* | *2478,0* | *0,0* | *0,0* |
| *Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması* | *221500* | *500,0* | *491,0* | *491,0* |
| *Digər malların alınması* | *221900* | *9000,0* | *6540,0* | *6540,0* |
| ***İş və xidmətlərin alınması*** | ***222000*** | ***551440,0*** | ***454679,0*** | ***454679,0*** |
| *Cari təmir* | *222100* | *61290,0* | *43665,0* | *43665,0* |
| Tikinti və avadanlıqların cari təmir xərcləri | 222110 | 28825,0 | 23762,0 | 23762,0 |
| Nəqliyyat vasitələrinin cari təmir xərcləri | 222120 | 32465,0 | 19903,0 | 19903,0 |
| *Kommunal xidmətlərin haqqının ödənilməsi* | *222200* | *61797,0* | *54081,0* | *54081,0* |
| *Elektrik enerjisi haqqının ödənilməsi* | *222210* | *25667,0* | *25335,0* | *25335,0* |
| Qaz haqqının ödənilməsi | 222220 | 15500,0 | 12006,0 | 12006,0 |
| Su haqqının ödənilməsi | 222230 | 2400,0 | 2000,0 | 2000,0 |

| | | | | |
|---|---|---|---|---|
| Kanalizasiya xidmətləri haqqının ödənilməsi | 222240 | 2400,0 | 2000,0 | 2000,0 |
| İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | 222250 | 11330,0 | 11330,0 | 11330,0 |
| Digər kommunal xidmətlərin haqqının ödənilməsi | 222290 | 4500,0 | 1410,0 | 1410,0 |
| *Telekommunikasiya və poçt rabitəsi xidmətləri haqqının ödənilməsi* | *222300* | *75112,0* | *53959,0* | *53959,0* |
| *Telefon danışıq haqlarının ödənilməsi* | *222310* | *26024,0* | *19164,0* | *19164,0* |
| Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | 222311 | 25524,0 | 19120,0 | 19120,0 |
| Beynəlxalq telefon danışıqları haqlarının ödənilməsi | 222312 | 500,0 | 44,0 | 44,0 |
| Poçt rabitəsi xidmətləri haqqının ödənilməsi | 222320 | 2200,0 | 1520,0 | 1520,0 |
| İnternet xidməti haqqının ödənilməsi | 222330 | 25448,0 | 22821,0 | 22821,0 |
| Proqram təminatlarına və məlumat bazalarına xidmət haqlarının ödənilməsi | 222340 | 21440,0 | 10454,0 | 10454,0 |
| *Əsas fondların və digər aktivlərin icarəsi, kirayəsi, saxlanılması və mühafizəsi xərcləri* | *222400* | *103706,0* | *97444,0* | *97444,0* |
| Mühafizə xərcləri | 222430 | 90838,0 | 90837,0 | 90837,0 |
| Əsas fondların və digər aktivlərin saxlanılması xərcləri | 222440 | 12868,0 | 6607,0 | 6607,0 |
| Əsas fondlara xidmət haqqı xərcləri | 222441 | 10368,0 | 5618,0 | 5618,0 |
| Sanitariya-gigiyena və digər xidmət haqqı xərcləri | 222442 | 2500,0 | 989,0 | 989,0 |
| *Ezamiyyə xərcləri* | *222500* | *150000,0* | *149022,0* | *149022,0* |
| *Ölkədaxili ezamiyyətlər* | *222510* | *70000,0* | *69094,0* | *69094,0* |
| Xarici ezamiyyətlər | 222520 | 80000,0 | 79928,0 | 79928,0 |
| *Digər iş və xidmətlərin haqqının ödənilməsi* | *222900* | *99535,0* | *56508,0* | *56508,0* |
| Atributların, mükafatlandırma nişanlarının hazırlanması, təltif və mükafatlandırma ilə bağlı xərclər | 222910 | 4950,0 | 4683,0 | 4683,0 |
| Istehlak yönlü müxtəlif xidmətlər | 222920 | 23471,0 | 18668,0 | 18668,0 |
| Bank və plastik kartların xərcləri | 222940 | 28014,0 | 16227,0 | 16227,0 |
| Bank xidmətləri haqqının ödənilməsi | 222941 | 28014,0 | 16227,0 | 16227,0 |
| Dövlət qulluqçularının əlavə təhsil xərcləri | 222960 | 4635,0 | 0,0 | 0,0 |
| Sair xərclər | 222990 | 38465,0 | 16930,0 | 16930,0 |
| ***Təmsilçilik və təşviqat xərcləri*** | ***224000*** | ***117000,0*** | ***89110,0*** | ***89110,0*** |
| *Təmsilçilik xərcləri* | *224100* | *117000,0* | *89110,0* | *89110,0* |
| Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi | 224110 | 92000,0 | 72199,0 | 72199,0 |
| Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərin qəbulu, onlara xidmət göstərilməsi | 224120 | 25000,0 | 16911,0 | 16911,0 |
| **SOSİAL ÖDƏNİŞLƏR** | **270000** | **168080,0** | **131097,0** | **131097,0** |
| ***Sosial sığorta*** | ***271000*** | ***60500,0*** | ***27818,0*** | ***27818,0*** |

| | | | | |
|---|---|---|---|---|
| *Müavinət* | *271200* | *60500,0* | *27818,0* | *27818,0* |
| Əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət | 271220 | 60500,0 | 27818,0 | 27818,0 |
| ***Digər sosial ödənişlər*** | ***279000*** | ***107580,0*** | ***103279,0*** | ***103279,0*** |
| *Dövlət qulluqçularına ödənişlər* | 279100 | 107580,0 | 103279,0 | 103279,0 |
| **QEYRİ-MALİYYƏ AKTİVLƏRİ** | **310000** | **275800,0** | **218858,0** | **218858,0** |
| ***Torpaq, tikili və avadanlıqlar*** | ***311000*** | ***180840,0*** | ***163607,0*** | ***163607,0*** |
| *Tikili və avadanlıqlar* | *311100* | *82240,0* | *66063,0* | *66063,0* |
| Maşın və avadanlıqlar | 311150 | 82240,0 | 66063,0 | 66063,0 |
| Sair torpaq, tikili və avadanlıqlar | 311900 | 3600,0 | 3544,0 | 3544,0 |
| *Nəqliyyat vasitələri* | *311200* | *95000,0* | *94000,0* | *94000,0* |
| Avtomobil nəqliyyatı vasitələri | 311260 | 95000,0 | 94000,0 | 94000,0 |
| ***Əsaslı təmir*** | ***312000*** | ***26000,0*** | ***17764,0*** | ***17764,0*** |
| *Nəqliyyat vasitələrinin əsaslı təmiri* | *312200* | *26000,0* | *17764,0* | *17764,0* |
| ***Qeyri-maddi aktivlər*** | ***314000*** | ***68960,0*** | ***37487,0*** | ***37487,0*** |
| **Cəmi** | | **10825586,0** | **8675505,0** | **8675505,0** |

*Qeyd: *2023-cü il üçün Hesablama Palatasının xərclər smetası 10,6 mln. manat təsdiq edilmiş, bundan əlavə, il ərzində bölüşdürülməmiş xərc istiqamətlərindən 0,2 mln. manat əlavə vəsait ayrılmışdır.*

***"Büdcə sistemi haqqında" Qanunun 19.6-cı maddəsinin tələbləri əsas gətirilərək ilkin təsdiq edilmiş məbləğ 2,1 mln. manat azaldılmışdır.*

Qeyd edək ki, ilkin nəzərdə tutulmuş göstəricilərə nisbətən aşağı icra səviyyəsi Hesablama Palatasının ştat cədvəlində vakant vəzifələrin olması, keçirilmiş dövlət satınalmaları zamanı bəzi hallarda (mətbəə məhsulları, beynəlxalq tədbir, maşın və avadanlıqlar, habelə qeyri-maddi-aktivlər üzrə) qalib təşkilatın təklifinin ehtimal olunan qiymətdən əhəmiyyətli dərəcədə aşağı olması ilə vəsaitə qənaət olunması və s. ilə bağlı olmuşdur. Eyni zamanda, vakant yerlərin mövcudluğu əməyin ödənişi xərcləri ilə yanaşı, malların (işlərin və xidmətlərin) satınalması və qeyri-maliyyə aktivləri xərcləri üzrə də qənaətin formalaşmasına təsir etmişdir.

Cədvəl 2-dən göründüyü kimi, iqtisadi təsnifat üzrə "*Əməyin ödənişi*" bölməsi ümumi xərclərin 88,3%-ni təşkil etmişdir. Bu bölmə üzrə orta hesabla ştatda olan 148 əməkdaşa və ştatdankənar 9 əməkdaşa əməkhaqqı, 118 əməkdaşa mükafat hesablanaraq ödənilmişdir.

"*Malların (iş və xidmətlərin) satınalınması*" bölməsi ümumi xərclərin 7,7%-ni təşkil etmişdir.

"Malların satınalınması" köməkçi bölməsi üzrə Hesablama Palatasının "Dövlət auditi" rüblük rəsmi məlumat bülleteninin 4 nömrəsi, illik fəaliyyət haqqında hesabatı, büdcə proseslərinə dair Hesablama Palatasının rəyləri üzrə Xülasələri çap edilmiş, müxtəlif növ kargüzarlıq məhsulları, dəftərxana və təsərrüfat ləvazimatları alınmışdır.

"İş və xidmətlərin alınması" köməkçi bölməsi üzrə vəsaitlər əməkdaşların iş şəraitinin yaxşılaşdırılması üçün istifadə edilmişdir. Hesabat ilində "Ezamiyyə xərcləri" paraqrafının xərcləri hesabına cari ildə 44 əməkdaş adam-gün hesabı ilə 1005 gün 24 rayonda nəzarət

tədbirlərinin keçirilməsi ilə əlaqədar daxili ezamiyyətdə və Hesablama Palatasının beynəlxalq tədbirlərində iştirakı ilə əlaqədar 16 əməkdaş adam-gün hesabı ilə 139 gün 11 ölkədə xarici ezamiyyətdə olmuşlar.

"Təmsilçilik və təşviqat xərcləri" 4 beynəlxalq tədbirin təşkili (birgə təşkili) istiqamətində icra edilmişdir. Belə ki, "Beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi" xərcləri Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) Maliyyə Auditi və Mühasibatlıq üzrə Alt Komitəsinin illik toplantısının və Ali Audit Qurumlarının Asiya Təşkilatının (ASOSAI) Dayanıqlı İnkişaf Məqsədləri üzrə İşçi Qrupunun toplantısının Bakıda keçirilməsi, "Xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərin qəbulu, onlara xidmət göstərilməsi" xərcləri 2 tədbirin digər qurumlarla birgə təşkili (Auditorlar Palatası ilə birgə "Dayanıqlı İnkişaf: Hesabatlılıq və şəffaflıq" tədbirinə və İqtisadiyyat Nazirliyi ilə birgə "III Dayanıqlı İnkişaf Məqsədləri Dialoqu"na dəvət olunmuş qonaqların, o cümlədən xarici ali audit orqanlarının nümayəndə heyətlərinin qəbulu ilə əlaqədar xərclərin maliyyələşdirilməsi) məqsədilə icra edilmişdir. Qeyd edək ki, Hesablama Palatasının ev sahibliyi ilə 2023-cü ildə keçirilən tədbirlərdən biri ilə bağlı ayrıca hesabat rəsmi internet səhifəsi (https://sai.gov.az/files/FAAS_intosai2023_v3-722342956.pdf) vasitəsilə ictimaiyyətə açıqlanmışdır.

"*Sosial ödənişlər*" bölməsi Hesablama Palatasının ümumi xərclərinin tərkibində 1,5% təşkil etmişdir. Qeyd olunan xərc istiqaməti üzrə 5 nəfər dövlət qulluqçusunun pensiya yaşına çatması ilə əlaqədar əmək müqaviləsinə xitam verilməsilə bağlı birdəfəlik haqq, habelə 39 əməkdaşa əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinət ödənilmişdir.

"*Qeyri-maliyyə aktivləri*" bölməsi ümumi xərclərin tərkibində 2,5% təşkil etmişdir. Bu bölmə üzrə 2023-cü ildə Hesablama Palatasına avadanlıqlar, o cümlədən 18 ədəd stolüstü kompüter, 18 ədəd noutbuk, 11 adda 29 ədəd digər müxtəlif növ avadanlıq, xidməti minik avtomobili, proqram təminatı və videokommunikasiya platforması alınmış, digər müvafiq işlər aparılmışdır.